**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI SLAVYAN UNİVERSİTETİ**

**BƏDİRXAN ƏHMƏDLİ**

# XX ƏSR AZƏRBAYCAN ƏDƏBİYYATI TARİXİ

**D Ə R S L İ K**

**ÜÇ CİLDDƏ**
**II CİLD**

Azərbaycan Respublikası Təhsil nazirinin
24 noyabr 2010-cu il 1531 №-li əmri ilə
təkmilləşdirilərək yenidən nəşr olunur.

qanun nəşriyyatı

**AKADEMİK NİZAMİ CƏFƏROVun**
**ümumi redaktəsilə**

*Redaktorlar:* **Muxtar İmanov**
*akademik*
**Əli Şamil**
**Şahbaz Şamıoğlu**
*filologiya elmləri doktoru*

*Rəyçilər:* **Tehran Mustafayev**
*AMEA-nın müxbir üzvü*
**Nazif Qəhrəmanlı**
*filologiya elmləri doktoru, professor*
**Alxan Məmmədov**
*filologiya elmləri doktoru, professor*
**Tahirə Məmməd**
*filologiya elmləri doktoru, professor*

*Korrektor:* **Aytən Səadəti**

**Bədirxan Əhmədli. XX əsr Azərbaycan ədəbiyyatı tarixi.**
***(Bakalavr və magistrlər üçün dərslik).*** Üç cilddə, II cild.
Bakı, Qanun nəşriyyatı, 2024, 584 səh.

Filologiya elmləri doktoru, professor B.Əhmədlinin bu dərsliyi son əlli ildə ədəbiyyat tarixçiliyi ilə bağlı aparılan ən yeni təmayülləri, fikirləri özündə ehtiva edir. Dərslikdə Azərbaycan ədəbiyyatı tarixinin çox az tədqiq olunmuş bir mərhələsinin (1920-1960) ədəbi prosesi, şəxsiyyətləri, hadisə, istiqamət və keyfiyyətləri yeni düşüncə orbitindən dəyərləndirilir. Müəllifin icmalları, təhlil və portret oçerkləri bundan sonra aparılacaq araşdırmalar üçün yeni bir nəzəri-metodoloji istiqamət açır.

Dərslik bakalavr və magistrlər üçün nəzərdə tutulmuşdur. Bununla belə, ədəbiyyat tarixinin müxtəlif problemləri ilə maraqlanan tədqiqatçılar üçün də zəngin mənbə hesab oluna bilər.

ISBN 978-9952-38-973-9

© Qanun Nəşriyyatı, 2024
© Bədirxan Əhmədli, 2024

# İÇİNDƏKİLƏR

**GİRİŞ**..........................................................................................**8**

**BİRİNCİ BÖLÜM**
**PROLETAR HEGEMONİYASI DÖVRÜNÜN ƏDƏBİYYATI (20-ci illər)**

**1.1. İctimai həyat və ədəbi proses**..........................................................**14**
Dövrün özünəməxsusluğu. Milli təmayülçülük, Vətənçilik və cümhuriyyətçiliyin beynəlmiləlçiliklə əvəzlənməsi. Həqiqi istiqlalçılıqdan sonra yalançı müstəqillik. Ədəbiyyatın qarşısına qoyulan vəzifələr. Senzuralı mətbuat və ədəbiyyat. Köhnəni tənqid, yenini təbliğ. Ədəbi prosesin yeni mənzərəsi. Ədəbi müzakirələr və "məhkəmə"lər. Proletar ədəbiyyatı və mədəniyyətinin formalaşması. Ədəbiyyatda proletarlaşma. Ədəbi cəmiyyət və təşkilatların yaranması. "Yaşıl qələm" və "Gənc qızıl qələmlər". APYC-nin qurultayları. Türkiyədə çıxan şeirlərinə görə Ə.Cavada hücumlar.

**1.2. Poeziya**..........................................................................................**39**
İstiqlalçılıq, milli müəyyənlik duyğularının getdikcə zəifləməsi. Poeziyada yeniləşmə meyilləri. Yeni poetik təfəkkürün formalaşması. "Sənət sənət üçündür"dən "Sənət həyat üçündür" ədəbi formuluna. Ədəbiyyatda voronskiçilik və preverzevçilik. Yeni mövzu və problematikalar. "Qızıl gənc qələmlər" məcmuəsinin nəşri. Sentimental-romantik poeziyadan nikbin sonluğa. Ə.Nazim, N.Hikmət, S.Rüstəm, S.Vurğun, M.Müşfiq, M.Rəfilinin şeirləri. Sabir poeziya ənənələri; Ə.Nəzmi, Ə.Razi, M.S.Ordubadi, S.Mənsur, Ə.Vahidin satirik şeirləri.
**Hacı Kərim Sanılı** ..........................................................................**71**

**1.3. Nəsr**..........................................................................................**76**
Klassik nəsr ənənələrinin davamı. Ə.Haqverdiyev, S.S.Axundovun bədii nəsri. C.Məmmədquluzadənin yeni hekayə və felyetonları. "Hamballar", "Taxıl həkimi", "Bəlkə də, qaytardılar", "Zırrama". 20-ci illər yeni bədii nəsrinin formalaşması problemləri. Bədii nəsrdə irihəcmli əsərlərin yaranmamasının səbəbləri. Y.V.Çəmənzəminli, S.Hüseyn, B.Talıblı, H.Nəzərli, T.Ş.Simürğ, Ə.Ələkbərzadənin hekayələri. Bədii nəsrdə psixologizm elementləri (Əbülhəsən "Sofi", "Boşandı"). Müasir həyat hadisələrinin təsviri.
**Seyid Hüseyn**..........................................................................................**97**
**Tağı Şahbazi Simürğ**..........................................................................**108**

**1.4. Dramaturgiya.....................................................................................112**
Azərbaycan dramaturgiyasının səciyyəvi xüsusiyyətləri. "Tənqid-təbliğ" ("Satir-agit") teatrının yaranması. Dramaturgiyanın mövzu və problematikası. C.Cabbarlı və H.Cavid teatrı. Həyat həqiqəti və bədii gerçəklik. H.Cavid yaradıcılığında yeni mərhələ; "Peyğəmbər", "Topal Teymur". Dramaturgiyada müasir həyat hadisələrinin təsviri ("Sevil", "Almaz"). Komediya janrının yeni mərhələsi. C.Məmmədquluzadə ("Dəli yığıncağı"). Dramaturgiyada qadın azadlığı problemi.
**Cəfər Cabbarlı...............................................................................127**

**İKİNCİ BÖLÜM
SİYASİ-İCTİMAİ REPRESSİYALAR
DÖVRÜNÜN ƏDƏBİYYATI (30-cu illər)**

**2.1. İctimai həyat və ədəbi proses...............................................................144**
İctimai-siyasi həyatda olduğu kimi ədəbi mühitdə də "kim kimi" məsələsi. Proletarlar və cığırdaşlar. Sağ və sol təmayüllər. Proletar platformasına kütləvi keçid. A.İldırımın Dağıstana sürgün edilməsi. Yenidən təşkilatlanma, ədəbi qurultay və müşavirələr. Azərbaycan Yazıçılar İttifaqının I qurultayı. Proqram xarakterli çıxışlar. C.Cabbarlının vəfatı. Ədəbiyyat və repressiya. Repressiya caynaqlarının ədəbi mühitə uzanması. Repressiyanın xarakteri və genezisi.

**2.2. Poeziya.......................................................................................167**
Poeziyanın inkişafında proqressiv amillərin çoxalması. Proletkultçuluq, şüarçılıq və sxematizmin tədricən öz yerini poetik tərənnümə verməsi. Aktuallıq və müasirlik. Lirika və onun fərdi təzahür problemləri. Sərbəst şeirin təşəkkülü məsələləri. Epik poeziya; poema janrının imkanları. Yeni poetik axtarışlar. Zamanın nəbzi. S.Vurğunun "Ölən şeirlərim". S.Rüstəm, M.Müşfiq, M.Rahim, O.Sarıvəlli, M.Dilbazi, N.Rəfibəyli, A.Faruq və başqalarının poeziyası. Sərbəst şeirin mövzu və problematikası. Epik və lirik poemaların yaranması. "Səsli qız", "Pambıq dastanı" (Ə.Cavad), "Komsomol poeması", "Macəra", "Qız qayası" və s. (S.Vurğun), "Cəlladları durdur" (R.Rza), "Arzu qız", "Şairin xəyalı" (M.Rahim).
**Mikayıl Müşfiq ...........................................................................199**

**2.3. Nəsr..........................................................................................209**
Yeni nəsrin formalaşması. Nəsrdə yeni cəmiyyət problemləri. Ailə-əxlaq məsələləri. Meşşanlıq, yeniliklə köhnəliyin təsviri. Hekayə janrının mühüm yer tutması. Nəsrdə deklorativlik, plakatçılıq, sxematiklik. Qantəmir, M.Cəlal və S.Rəhmanın satirik hekayələri. Obrazların sinfi nöqteyinəzərdən təsviri. Nəsrdə psixologizm və naturalizm problemləri. Müasir

həyat hadisələri ilə bağlı romanların yazılması. M.S.Ordubadinin “Gizli Bakı”, “Döyüşən şəhər”, Ə.Ələkbərzadənin “Dünya qopur” “Yoxuşlar”, S.Rəhimovun “Şamo”, M.Cəlalın “Dirilən adam”, M.Hüseynin “Daşqın”, “Tərlan” və s. romanları. S.Rəhmanın “Vəfasız” povesti və onun tənqidi. Roman və povest janrlarının yeni mərhələyə daxil olması.
**Yusif Vəzir Çəmənzəminli..................................................................229**
**Məmməd Səid Ordubadi......................................................................240**

**2.4. Dramaturgiya.....................................................................................248**
Yeni dramaturji təmayüllər və prinsiplər. Sosrealizm çevrəsində yaranan dramaturgiya. C.Cabbarlının qurultayda çıxışı. Dramaturgiyanın inkişafının müxtəlif istiqamətlərdə təzahürü. H.Cavidin “Xəyyam”, “Səyavuş”, “İblisin intiqamı” dramları. Yeni tipli pyeslərin yaranması. C.Cabbarlının ölümü və H.Cavidin repressiyası ilə mövcud teatr ənənəsinin sona çatması. S.Vurğun, M.İbrahimov, S.Rəhmanın dramaturgiyada debütü.

**ÜÇÜNCÜ BÖLÜM**
**SOSREALİZMİN TƏŞƏKKÜLÜ VƏ YENİ MEYİLLƏRİN TƏZAHÜRÜ (40-50-ci illər)**

**3.1. İctimai həyat və ədəbi proses...............................................................268**
Ədəbi mühitin sosrealizm çərçivəsində inkişafı. II Dünya müharibəsinin başlanması və bu prosesə ədəbi mühitin də səfərbər olması. Şair və yazıçıların cəbhəyə getməsi. Müharibə ədəbiyyatının yaranması. S.Vurğun, S.Rüstəm, R.Rza, Ə.Cəmil və b. müharibə şeirləri. Müharibədən sonra ədəbiyyata yeni qüvvələrin gəlməsi: İ.Şıxlı, İ.Hüseynov, V.Babanlı, B.Vahabzadə, H.Arif, N.Xəzri, Ə.Kərim, Ə.Kürçaylı, S.Əsəd və b. Siyasi hakimiyyətin dəyişməsi. Siyasi arenadakı yumşalmanın ədəbiyyata etkisi. Ədəbi mühitdə yeni təmayüllərin təzahürü.

**3.2. Poeziya.................................................................................................278**
İyirmi illik mərhələnin poetik axtarışları. Poeziyanın “müsəlləh əsgər” olması. Müharibə poeziyası və onun başlıca xüsusiyyətləri. Azərbaycan poeziyasında Cənub mövzusu. S.Rüstəm, S.Vurğun, O.Sarıvəllinin şeirlərində Cənub həsrəti. Poeziyada yeni meyillər və fəlsəfi motivlər. B.Vahabzadə, N.Xəzri, İ.Səfərli, H.Hüseynzadə, Ə.Kürçaylı, M.Araz, S.Əsəd, Ə.Kərim, H.Kürdoğlunun poeziyaya yeni düşüncə, yeni nəfəs və yeni ruh gətirməsi. Poema janrının aparıcı mövqeyini qoruyub saxlaması. Poemada mənəvi-əxlaqi, milli dəyərlərin təzahürü.
**Səməd Vurğun ..........................................................................................309**
**Süleyman Rüstəm .....................................................................................324**

**Rəsul Rza** ........................................................................334
**Məmməd Rahim** ..................................................................349
**Osman Sarıvəlli** .................................................................357
**Əliağa Vahid**.......................................................................366

**3.3. Nəsr**..................................................................................372
Poeziyaya nisbətən nəsrin ön mövqeyə keçməsi. Bədii nəsrin inkişafını şərtləndirən amillər. İdeolojidən və rejimdən gəlmə ziddiyyətlərin tədricən aradan qalxması. S.Rəhimov, M.Hüseyn, Ə.Ələkbərzadə, M.İbrahimovla yanaşı İ.Əfəndiyev, İ.Şıxlı, İ.Hüseynov və b. bədii nəsrinin çağdaş cəmiyyətə getdikcə daha çox nüfuz etməsi. Nəsrdə psixoloji amilə üstünlük verilməsi. M.Hüseynin "Yeraltı çaylar dənizə axır", İ.Hüseynovun "Yanar ürək" romanları.
**Süleyman Rəhimov** ..............................................................385
**Mir Cəlal** .............................................................................395
**Əli Vəliyev** ..........................................................................406
**Mehdi Hüseyn** ......................................................................413
**Əbülhəsən Ələkbərzadə** .......................................................421
**Mirzə İbrahimov** ..................................................................431

**3.4. Dramaturgiya**......................................................................444
Dramaturgiyanın yeni şərtlər daxilində və yeni şəraitdə inkişafı. Faciə janrının taleyinin sual altında qalması. Mənzum və tarixi dramlar. S.Vurğunun "İnsan" dramı və ona tənqidi münasibətin səbəbləri. "Qalib gələcəkmi cahanda kamal?" sualının mövcud şəraitə uyğun olmaması. S.Rəhmanın "Aşnalar" komediyası və ona tənqidi münasibət. Dramaturgiyada yeni imza və üslublar. İ.Əfəndiyevin "Atayevlər ailəsi". "Konfliktsizlik" nəzəriyyəsinin dramaturgiyanın inkişafını zəiflətməsi.
**Sabit Rəhman**.......................................................................463

**DÖRDÜNCÜ BÖLÜM**
**AZƏRBAYCAN MÜHACİRƏT ƏDƏBİYYATI**

**4.1. İctimai siyasi proses və ədəbi həyat**....................................476
Mühacirət ədəbiyyatı Azərbaycan bədii düşüncəsini zənginləşdirən faktorlardan biri kimi. Azərbaycan siyasi mühacirəti. Mühacirət ədəbiyyatının mərhələ və problemləri. "Yeni Kafkasiya", "Azərbaycan yurd bilgisi", "Odlu yurd", "Bildiriş", "Azəri türk" və s. mətbuat orqanlarında ədəbiyyat məsələləri. Mühacirət poeziyası. Gültəkin, A.İldırım, Sənan, Əhməd Təkin və b. şeirləri.

**4.2. Legion ədəbiyyatı mühacirətin bir qolu kimi....................................491**
II Dünya müharibəsində mühacirətin yeni dalğasının yaranması. Almaniyada legionerlərin yaranması ilə legion ədəbiyyatının formalaşması. A.Bulaq, Alptəkin, Anar, An-ar, Atilla, leg. Avaylı, leg. Daşqın, leg. Dəniz, leg. Ə.Camal, leg. Əhmədov K., leg. Ə.Xaspoladov, leg. Əliş M., leg. Gəncəli, Gültəkin, H.Azəri, H.İşıqlı, leg, Qafarlı, leg. Q.Şirvan, leg. Qürbətzadə və b. poeziya, Şuşalı, leg. Avaylı, leg. Həmidov S.Z.Yaşar, Elçin, R.Vulqan, H.B. Hərdən-birdən, Hərdənbirçi, N.Xaspolad və b. bədii nəsr, felyeton və məqalələrində milli istiqlal problemi.
**Məhəmməd Əmin Rəsulzadə...............................................................502**
**Almas İldırım........................................................................................521**
**Qurban Səid (Məhəmməd Əsəd bəy) və onun**
**“Əli və Nino” romanı...........................................................................529**
**Gültəkin (Əmin Abid)...........................................................................541**

## BEŞİNCİ BÖLÜM
## CƏNUBİ AZƏRBAYCAN ƏDƏBİYYATI

**5.1. Cənubda ədəbi proses və onun nümayəndələri................................. 554**
20-50-ci illər Cənubi Azərbaycan ədəbiyyatının inkişaf yolları, mövzu və problematikası. Cənubda gedən ictimai-siyasi proseslərin ədəbi fikrə təsiri. Səttarxan, Xiyabani və Pişəvəri hərəkatlarının, milli ruhun ədəbi düşüncədə əksi. M.Ə.Sabir ənənəsinin davamı. M.Möcüz və B.Abbaszadənin satirik şeirləri. Əli Fitrət, Mir Mehdi Çavuşi, Kəmali, Sabit Manafzadə, Həbib Sahir, Cəfər Kaşif, Hüseyn Səhhaf və başqalarının yaradıcılığı.
**Məhəmmədhüseyn Şəhriyar.................................................................564**
**Ədəbiyyat..............................................................................................575**

# GİRİŞ

XX yüzillik xalqımız üçün yalnız siyasi cəhətdən deyil, ədəbi, mədəni, kulturoloji cəhətdən də yeni bir mərhələdir. Başa çatmış əsrə kənardan baxış ədəbiyyatın keçdiyi yolun ziddiyyətli olduğu qədər də forma, məzmun, ideya, obrazlar baxımından zəngin olduğunu göstərir. Bu yüzillikdə 20-50-ci illər ədəbiyyatı isə ayrıca bir mərhələni təşkil edir. Ötən yüzilliyin ədəbi nümunələri içərisində ən çox tənqidə məruz qalan da məhz bu dövrün ədəbi məhsulları olur. Bunun əsas səbəbi dövrün bir çox ədəbi-bədii nümunələrinin sovet, yaxud kommunist ideologiyasının ruporuna çevrilməsidirsə, digər səbəbi dövrün ədəbiyyatının yalnız sovet ədəbi tənqidinin təqdimatında öyrənilmə və onu siyasi gözlüklə dəyərləndirmədir. Məlumdur ki, sovet ədəbi tənqidi və ədəbiyyatşünaslığı uzun müddət (əsasən, 20-50-ci illər) ədəbiyyatımıza yalnız sosrealizm ədəbi-tənqidi metodologiyasını tətbiq edir, ədəbi nümunələri bu prizmadan dəyərləndirirdi. Lakin zaman keçdikcə, həm bu ədəbi nümunələr, həm də sosrealizm çərçivəsindən kənara çıxan (bunlar haqqında vaxtilə dövrün ədəbi tənqidi öz münasibətini bildirmişdir!) əsərlər bu gün yenidən ədəbi dövriyyəyə daxil olmaq imkanı qazanır. Bu o deməkdir ki, bu əsərlərin heç də hamısını kommunist ideolojisinin ifadəçisi hesab etmək doğru deyil və bu, ədəbiyyatımız tarixinə düzgün yanaşmamağın təzahürüdür. Ola bilməz ki, bir xalqın, millətin ədəbi düşüncə tərzi bütünlüklə bir ideologiyanın ruporuna çevrilmiş olsun. Ona görə də həmin dövrün ədəbi, bədii düşüncəsini yenidən araşdırmaq və metodoloji cəhətdən dəyərləndirmək lazım gəlir. Nəzərə alsaq ki, ədəbiyyat tariximizin akademik nəşrinin üzərindən yarım əsrə qədər bir zaman keçir, onda mürəkkəb sosrealizm dövrünün ədəbiyyatının yenidən araşdırılması və qiymətləndirilməsi zərurətini aydın şəkildə görmək mümkündür.

XX əsr başa çatıb, artıq sosrealizm çoxdan öz ömrünü başa vursa da, ədəbi, bədii düşüncənin öyrənilməsi davam edir; ötən müddətdə çoxlu sayda arxivlərdən indiyədək dərc olunmayan əsərlərin ya özünün, ya da yeni variantlarının üzə çıxması, yeni elmi araşdırmaların — məqalələrin, monoqrafiyaların yazılması bu prosesin getdiyini göstərməkdədir. Artıq bu dövrdə yazıb-yaratmış bir çox yazarların şəxsiyyəti, həyatı, yaradıcılığı ilə bağlı araşdırmalar müstəqil elm sahələrini təşkil etməyə başlayıb. Bununla yanaşı, hər bir dövrün ədəbiyyatşünaslığı keçilmiş yola da nəzər salır, özündən əvvəlki ədəbi tənqidin elmi-nəzəri müddəalarını saf-çürük edir, saflaşdırır, onu yenidən işləyərək zənginləşdirir. Bədii ədəbiyyat və dövrün ədəbi prosesi ədəbiyyatşünaslığın əsas predmeti olaraq yenidən işlənməni zəruri edir. Bu zəruriliyi doğuran amillərdən biri isə müasir ədəbiyyatşünaslığın qarşısında duran problemlərin həllidir. Belə ki, çağdaş ədəbiyyatşünaslığımız hələ də sosrealizm dövrünün ədəbiyyatına yanaşma, dəyərləndirmə və qiymətləndirmə metodologiyasını işləyib hazırlamamışdır.

Ən aktual məsələ isə ali məktəb dərsliklərində hələ də dövrün prizmasından yazılmış əsərlərə yer verilməsidir. Biz bunu deyərkən, dövrün ədəbiyyatının əhəmiyyətini qətiyyən azaltmırıq, sadəcə olaraq mövcud ədəbiyyatşünaslığın prinsiplərinə görə daxil edilmiş əsərlərə yeni meyarlarla yanaşmanın müasirliyini təmin etmiş oluruq. Aydındır ki, ədəbiyyatşünaslarımız "sovet ədəbiyyatı" kimi tarixə düşmüş böyük bir dövrün ədəbi məhsulundan imtina etməni (bu cur hallara bəzi mətbuat səhifələrində daha çox yer verilir) yox, onu yenidən dəyərləndirməni həyata keçirməlidir. Bütünlüklə "sovet ədəbiyyatı"nın üzərindən xətt çəkmək dövrün ədəbiyyatını düzgün öyrənməməyin və qeyri-obyektiv qiymətləndirmənin nəticəsidir. Çünki ictimai quruluş dəyişərkən, həmin dövrün ədəbi məhsulundan imtina etmə doğru yol deyil, ən doğru yol yeni nəsillərin hansı ədəbi düşüncəni qəbul etməsi və həmin əsərin yeni təfəkkürlü insanların bədii zövqünü formalaşdırmasında nə dərəcədə rol oynamasından asılıdır. Biz sovetlər ittifaqından, "sovet ədəbiyyatı", "sosialist realizmi"nin ifadələrindən imtina edə bilərik (bunlar artıq keçmişdə qalmışdır) ancaq dövrün bütün "təlimlərdən kənarda yaranan və sırf sənətə xidmət edən

nümunələri tədqiqata cəlb etməli, onu yeni meyarlarla araşdırmalıyıq. Bu mənada, demək olmaz ki, ədəbiyyatşünaslıq elmimiz dövrün mövcud elmi-nəzəri problemlərini fundamental şəkildə öyrənmiş, ədəbiyyat tarixinin yaradılması üçün metodoloji, nəzəri bazanı tam yaratmışdır. Bu gün ədəbiyyatşünaslığımızın bu sahəsində bir boşluq hökm sürməkdədir. Artıq əvvəlki elmi-metodoloji meyarlar (buna marksizm-leninizm metodologiyası deyilir və trafaret şəklində bütün tədqiqatlara cəlb edilirdi) yoxdur. Lakin bu meyarları əvəz edən yeni metodoloji istinadlar da hələ formalaşmamışdır.

Bununla belə, əlimizdə imkan var ki, XX əsr ədəbiyyatını vahid bir ədəbi proses kimi tədqiq və təqdim edək. Çünki ədəbiyyat tarixinin yazılması ədəbi prosesi tamlıqla əks etdirməkdən keçir. Dərslikdə biz dövrün ictimai-siyasi, tarixi, ədəbi şəraiti obyektiv olaraq araşdırmanı, ayrı-ayrı mərhələlərin xüsusiyyətlərini aydınlaşdırmanı və bu ədəbi məhsullara yeni baxış ifadə etməni əsas götürmüşük. Bir tərəfdən ədəbi prosesdə baş verən hadisələri (bu hadisələr ədəbiyyatın inkişafına əngəl olsa belə, çünki yalnız bu halda ədəbiyyatımızın hansı maneələrdən keçib gəldiyini obyektiv şəkildə öyrənmək mümkündür), təhlil edərək ona yeni münasibət bildirilir, digər tərəfdən isə ədəbiyyat tariximizdə özünəməxsus mövqeyi olan yazıçı, şair və dramaturqların ədəbi prosesə təsir edən əsərləri üzərində geniş dayanırıq. Ola bilsin ki, bu əsərlər arasında müəllifin vaxtilə çox məşhur olan əsərləri olmasın, lakin onun yaradıcılıq xüsusiyyətlərini üzə çıxaran müasir elmi-nəzəri, metodoloji meyarlarla uyğun gələn başqa bir əsəri üzərində geniş dayanılsın.

Bəzi hallarda isə sənətkarın əsəri, fəaliyyəti ilə bağlı obyektiv mühakimələr onların şəxsiyyəti üzərinə kölgə salmağa xidmət kimi başa düşülməməlidir. Nəzərə alınmalıdır ki, artıq bu dövrdən 60-80 il vaxt ötüb, bu sənətkarların hər biri ədəbiyyat tarixində özünəməxsus yer tutur. Xüsusilə, 20-30-cu illərdə sinfi mübarizə şəraitində kəskinləşən ədəbi mübarizələrdə ədəbi cəbhələrin bir-birini ittiham etməsi, mübarizə və "münaqişə"ləri olduğu kimi çatdırılmalıdır. Nəzərə almalıyıq ki, ədəbiyyat tarixinin yazılmasında mülahizələr yox, faktlar və ədəbi hadisələr arqumentləşdirilir. Əsrin ədəbi təsərrüfatına nəzər salarkən, artıq "Repressiya və ədəbiyyat" probleminə də münasibət

bildirməyin vaxtı gəlib çatmışdır. "Ağ ləkələr"in üstündən keçən zaman özü bunu tələb edir. Onsuz da mətbuatda ayrı-ayrı məqalələrdə repressiya mövzusu son illərdə populyarlaşmış, repressiyaya uğrayan yazıçı, şair, tənqidçilər haqqında saysız-hesabsız məqalələr, xatirələr dərc olunmuşdu. Lakin repressiya o qədər çoxşaxəli, mürəkkəb və ziddiyyətli bir siyasi aksiyadır ki, onu subyektiv mülahizələrlə, yaxud mətbuatda yer almış hər hansı bir məqalə, şeirlə bağlamaq düzgün olmazdı. Hər şeydən əvvəl mürəkkəb strukturlu repressiya hadisəsini tarixi, ictimai-siyasi hadisə olaraq öyrənməli, tədqiq və öyrənmə strategiyasında subyektivizmə yol verilməməlidir (ətraflı "Repressiya və ədəbiyyat" başlığına bax.).

"Mühacirət ədəbiyyatı" və onun tərkib hissəsi olan "Legion ədəbiyyatı"nın ilk dəfə ədəbiyyat tariximizdə yer alması əsrin ədəbiyyatının tamlığını təmin etmək məqsədilə edilmişdir və fikrimizcə bu daha doğrudur. Qurban Səid (Lev Nissiumbaum) və onun "Əli və Nino" romanı ilə bağlı oçerkin verilməsi də məhz eyni zərurətdən irəli gəlmişdir.

Dərslikdə icmallardan da istifadə olunmuş və bu akademik tədqiqat bölümlərində ədəbi prosesə ümumi qiymət verməyə çalışılmışdır. Ədəbi janrlar üzrə bölgüdə ümumiləşdirmə yolu ilə ədəbi təsərrüfatın inkişaf istiqamətləri müəyyənləşdirilir. Bu zaman müasir tələblərə cavab verməyən əsərlərə də müraciət edilir (doğrudur, əksər hallarda bundan qaçmağa çalışmışıq, ancaq nə etmək olar, bu dövrün reallığıdır), bunda əsas məqsəd dövrün ədəbi mənzərəsini canlandırmaqdan ibarət olmuşdur. Dərsliklərdə bəzi yazıçı və şairlərin portret-oçerklərinin verilməsi onun ədəbiyyat tariximizdə tutduğu mövqeyinə görə müəyyənləşdirilir. Lakin portret-oçerkə haqqı olan yazıçı və şairlər də az deyil. Biz icmallarda onlar haqqında geniş məlumat verməyə çalışmışıq. Ə.Cavadın bu cilddə ayrıca yer almamasının əsas səbəbi isə onun "Cümhuriyyət dövrü Azərbaycan ədəbiyyatı" bölümündə verilməsidir.

Yeri gəlmişkən, dərsliyin yazılmasında qarşıya çıxan çətinliklərin miqyası ölçüyəgəlməzdir. Bir çox problemlərin hələ tam tədqiq olunmaması, 20-30, 40-50, 60-cı illərin ədəbi prosesinin yazılmaması, bir çox ədəbi məhsulların hələ tədqiqata cəlb edilməməsi, "sovet ədəbiyyatı"nın spesifikliyindən irəli gələn məsələlər və s. qarşıya